*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 dekabr 2018-ci il № 95 (2311) Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev:

## Azərbaycanlılar Vətənə bağlı insanlardır

Azərbaycanlılar dünyada özlərini həmişə öz Vətəninə bağlı insanlar kimi göstəriblər. Bu gün də bu, belədir. Əlbəttə, biz çox istəyirik ki, xaricdə yaşayan hər bir azərbaycanlı heç olmasa, ildə bir dəfə Azərbaycana gəlsin. Birincisi, ona görə ki, Vətənlə əlaqələr qırılmasın. İkincisi, ona görə ki, Azərbaycanın müxtəlif yerlərində çox gözəl şərait yaradılıb. Bakı şəhərində, bölgələrimizdə istirahət üçün gözəl, müasir otellər, istirahət zonaları var. Hesab edirəm ki, Azərbaycan indi dünya miqyasında öz imkanlarını ortaya qoyur.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 74-cü kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2016-cı il iyunun 3-də Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimində söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin mayından iyul ayınadək olan dövrü əhatə edir.

Dövlətimizin başçısının ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi, 28 May Respublika Günü ilə əlaqədar rəsmi qəbullarda söylədiyi nitqlərinin, "Gəncə-2016-cı il Avropa gənclər paytaxtı" layihəsinin açılış mərasiminin iştirakçılarına ünvanlanmış məktubunun, 80 illik yubileyi münasibətilə şair Oljas Süleymenova təbrikinin və digər müraciət və məktubların mətnləri ilə də bu kitabda tanış olmaq mümkündür.

# Müdafiə naziri ön xətt bölmələrinin döyüş hazırlığını yoxlayıb



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində olublar.*

Müdafiə nazirinə ərazinin maketi üzərində əməliyyat şəraiti barədə məruzə edildikdən sonra bölmələrin döyüşə hazırlıq vəziyyəti yoxlanılıb.

Gecə və gündüz şəraitində döyüş mühafizəsinin daha keyfiyyətli təşkili və müdafiənin dayanıqlığının artırılması məqsədilə yaradılan müşahidə məntəqəsindən qarşı tərəfdə yerləşən düşmən mövqelərini izləyən general-polkovnik Zakir Həsənov müasir texniki vasitələrdən istifadə edilməklə xidmətin daha effektiv təşkili ilə bağlı müvafiq tapşırıqlar verib.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan ilə NATO arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Araz Əzimov dekabrın 5-də NATO-nun Şimali Atlantika Şurasının "Qətiyyətli Dəstək" missiyası üzrə hazırkı və potensial əməliyyat tərəfdaşları ilə birgə xarici işlər nazirləri səviyyəsində iclasında iştirak edib.

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda NATO-nun müttəfiqləri və əməliyyat tərəfdaşları Əfqanıstandakı təhlükəsizliklə bağlı vəziyyəti və sülh prosesindəki inkişafları müzakirə edib, bu ölkədə uzunmüddətli sülhə və sabitliyə sadiq olduqlarını bildiriblər.

Nazir müavini Araz Əzimov Əfqanıstan üzrə 13-cü Cenevrə Konfransı ilə yanaşı, hazırkı iclasın bu ölkədə sülhün və sabitliyin bərqərar olunmasına dəstəyin ifadə edilməsi baxımından növbəti imkan olduğunu bildirib. O, Azərbaycanın "Qətiyyətli Dəstək" missiyasına və Əfqanıstanın inkişafına yönələn töhfələrinin davam etdiriləcəyini vurğulayıb.

A.Əzimov Əfqanıstanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına Azərbaycanın dəstəyini bir daha ifadə edib.

NATO Mənzil Qərargahına səfəri çərçivəsində A.Əzimov NATO baş katibinin müavini xanım Rouz Qotemöllerlə görüşüb. .

Görüşdə Azərbaycan və NATO arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan ilə NATO arasında Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində ötən 25 il ərzindəki uğurlu əməkdaşlıqdan bəhs edilib və əldə olunan nailiyyətlərin əhəmiyyəti vurğulanıb.

Nazir müavini Azərbaycanın Alyans ilə müntəzəm siyasi dialoqu və praktiki əməkdaşlığı davam etdirmək əzmində olduğunu diqqətə çatdırıb.

NATO baş katibinin müavini Azərbaycanın bu təşkilatın rəhbərliyi ilə aparılan "Qətiyyətli Dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə, tranzit, təlim və maliyyə töhfələrini yüksək qiymətləndirib. O, Əfqanıstanda sülhün və sabitliyin təmininə yönələn səylərinə görə Azərbaycan hökumətinə minnətdarlığını ifadə edib.

Tərəflər, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıb.

# Müdafiə naziri ön xətt bölmələrinin döyüş hazırlığını yoxlayıb

(Əvvəli 1-ci səhifədə)

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ön xətdə yaradılmış təlim-tədris sahələrindən birində döyüş tapşırıqlarını məşq etdirən şəxsi heyətlə görüşən Müdafiə naziri, xidmətdə fərqlənən və döyüş hazırlığında yüksək nəticələr əldə etmiş hərbi qulluqçuları mükafatlandırıb, bölmələrin maddi-texniki təminatı, silah-sursat və hərbi texnika ilə təchizatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, həmçinin sosial məişət şəraiti ilə tanış olub.





Sonra Ağdam rayonu ərazisindəki kəndlərdən birində yerli sakinlərlə görüşən nazir yaşayış məntəqələrimizin müdafiəsinin təşkili və əhalinin təhlükəsizliyinin təmin edilməsi barədə söhbətlər aparıb.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə söhbət zamanı burada yerli əhali və hərbçilər üçün yaradılan şəraitdən məmnunluqlarını ifadə edən kənd sakinləri Müdafiə nazirindən onların minnətdarlığını ölkə rəhbərliyinə, xüsusilə cənab Ali Baş Komandana çatdırmasını xahiş ediblər.

Sakinlər hərbçilərə etimadın yüksək olduğunu və Ordumuzun bölmələri tərəfindən bu istiqamətdə yerləşən yaşayış məntəqələrinin təhlükəsizliyinin etibarlı təmin edildiyini də bildiriblər.

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən tank hərbi hissəsinin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti bir sıra hərbi təyinatlı obyektlərdə olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ön xətdə yerləşən tank hərbi hissəsinin açılışında iştirak edən Müdafiə naziri burada yaradılan şəraitlə tanış olub və müvafiq göstərişlər verib.

Yeni tikilən inzibati və xidməti obyektlərə, həmçinin burada saxlanılan hərbi texnikalara baxış keçirən general-polkovnik Zakir Həsənov tank heyətlərinin hazırlığını yoxlayıb və zirehli texnikanın döyüş tətbiqi ilə bağlı tapşırıqlar verib.

Sonda Müdafiə naziri tankçılarla birgə nahar edib.



## ATƏT PA-nın vitse-prezidenti:
# Münaqişənin adı düzgün qeyd edilməlidir

Milanda keçirilən ATƏT PA-nın Büro iclasında Parlament Assambleyasının prosedur qaydaları və iş praktikası üzrə alt komitəsinin sədri, ATƏT PA-nın vitse-prezidenti lord Piter Bounes məruzəsində ATƏT ərazisində uzanan münaqişələrin həllinin vacibliyi məsələsinə toxunub.

AZƏRTAC xəbər verir ki, bu önəmli məsələyə toxunduğuna görə Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev lord Piter Bounesə təşəkkürünü bildirib, lakin Azərbaycanın ərazisində mövcud olan münaqişənin məruzədə "Dağlıq Qarabağ münaqişəsi" adlandırılmasına etirazını bildirib.

Azay Quliyev deyib: "Fikrimcə Ermənistan və Azərbaycan arasında münaqişənin adında əhəmiyyətli bir düzəliş etmək kifayət qədər zəruridir. İki ölkə arasında davam edən münaqişəyə nə siyasi, nə hüquqi, nə də coğrafi baxımdan Dağlıq Qarabağ münaqişəsi demək düzgün və anlaşılan deyil. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir. Ermənistan bu ərazini və Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan digər 7 ətraf rayonla birlikdə 25 ildir işğal altında saxlayır. Münaqişənin mahiyyətinə görə onu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlandırmaq daha doğrudur. Məhz elə bu səbəbdən münaqişənin sülh yolu ilə həlli üçün Ermənistan və Azərbaycan liderləri arasında uzun illərdir danışıqlar aparılır. Ona görə xahiş edərdim ki, bu səhv aradan qaldırılsın və ATƏT PA-nın bundan sonrakı sənədlərində münaqişə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" kimi qeyd edilsin. Bu düzəliş bir çox sui-istifadələrin və siyasi manipulyasiyaların qarşısını almaq üçün də çox önəmlidir".

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**6 dekabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**7 dekabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

İşğal altında olan Ağdam rayonunun Nəmirli, Qaraqaşlı, Kəngərli, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyi: "Bal-E" raket sistemlərinin alınması məqsədilə tərəfimizdən danışıqlar aparılmayıb

"Bal-E" raket sistemlərinin alınması məqsədilə tərəfimizdən danışıqlar aparılmayıb və kompleksin əldə edilməsi niyyətimiz də olmayıb.

Bu barədə son günlər müxtəlif kütləvi informasiya vasitələrində "Bal-E" raket sistemlərinin alınmasında Azərbaycanın maraqlı olduğu, lakin Rusiyanın kompleksin ölkəmizə satışını məqsədəuyğun saymaması barədə yayılan məlumatlarla əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildirilib.

"Eyni zamanda, onu da qeyd edək ki, Azərbaycanın Xəzər dənizi sektorunda təhlükəsizliyin təmin olunması məqsədilə müxtəlif ölkələrin müvafiq qabaqcıl müdafiə sistemlərindən və raket komplekslərindən istifadə edilir", - deyə məlumatda qeyd olunub.

# Azərbaycan və Ermənistan XİN-ləri arasında danışıqların yaxın gələcəkdə davam etdirilməsi razılaşdırılıb

Dekabrın 5-də İtaliyanın Milan şəhərində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri və Ermənistan Respublikasının Xarici İşlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan ilə görüşü olub.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, üç saatadək davam edən görüşdə tərəflərin bir-birlərinin mövqeyini daha yaxşı anlaması baxımından çox mühüm və faydalı danışıqlar aparılıb. Bu formatda danışıqların yaxın gələcəkdə, böyük ehtimalla gələn ay davam etdirilməsi razılaşdırılıb.

*Heydər Əliyev irsini öyrənirik*

# Heydər Əliyev irsi və ordu quruculuğu

*Bu gün xalqların qarşısında duran ən müqəddəs vəzifə müstəqilliyə nail olmaq və onu qoruyub saxlamaqdır. Xalqımız illərlə azadlığımız, müstəqilliyimiz yolunda mübarizə aparıb və oğullarımız bu yolda canlarından keçməyi bacarıb. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir.*




Bəşəriyyətin tarixi təkamül prosesi göstərir ki, hər hansı xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə ötürmək, suverenliyinə qovuşdurmaq və ən vacibi bu müstəqilliyi qoruyub saxlamaq kimi çətin missiya onun taleyində müstəsna rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olub.

Ötən əsrdə xalqımızın dünya siyasi arenasına bəxş etdiyi fenomenal nadir şəxsiyyət olan ümummilli lider Heydər Əliyevin sayəsində Azərbaycan Xalq Cümhuriyyətinin əsasını qoyduğu milli dövlətçilik düşüncəsi müstəqil Azərbaycan dövlətinin reallığına çevrilib. Ən vacibi Ümummilli Liderimizin böyük fədakarlıqları hesabına ata-babalarımızın qurub-yaratdığı dövlətin sarsılmazlığı, demokratik yüksəlişi, Azərbaycanın müstəqilliyinin əbədiliyi, daimiliyi, dönməzliyi təmin edilib. Ulu Öndərin Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanışı istiqamətində gördüyü böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik.

Bugünkü nəticə ondan ibarətdir ki, bütün ömrünü xalqa təmənnasız xidmətə həsr edərək, milli maraqları daim hər şeydən üstün tutan ulu öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin dönməzliyini və əbədiliyini təmin etdi. Bununla yanaşı, Azərbaycanın qarşılaşa biləcəyi çətinlikləri əvvəlcədən duyan Ümummilli Lider, zamanı qabaqlayaraq, ölkənin davamlı inkişafı, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi istiqamətində böyük işlər gördü, Azərbaycanın strateji maraqlarının təmin edilməsi üçün zəruri və qəti addımlar atdı.

Tarixdən məlumdur ki, ordu dövlətin suverenliyi və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olaraq dövlət quruculuğunun tərkib hissələrindən biridir. O da məlumdur ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olub. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu mənada fəxrlə deyə bilərik ki, Ümummilli Liderin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün artan və qüdrətlənən gücü ilə qürurlandığımız 100 yaşlı Azərbaycan Ordusudur.

Hakimiyyətdə olduğu illərdə ümummilli lider Heydər Əliyev Azərbaycan Ordusunu və onun formalaşması prosesini diqqət mərkəzində saxladı. Hələ sovet dönəmində Ulu Öndərin uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması ilə gələcəkdə müstəqil Azərbaycanın Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atıldı.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra da apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

Ümumilikdə götürəndə, ordu faktoru hər bir dövlətin daxili və xarici siyasətinin güzgüsü sayılır. Dövlətin və cəmiyyətin orduya münasibəti həmin dövlətin öz nüfuzuna, bu gününə və sabahına olan münasibətidir. Ordu faktorunun rolu isə bilavasitə onun döyüş qabiliyyətindən asılıdır.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də müasir və modern Azərbaycan Ordusunun yaradıcısı ümummilli lider Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir. Bu gün ordumuz döyüş və mənəvi-psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə edərək gündən-günə daha da güclənir və qüdrətlənir. Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan hər bir Azərbaycan vətəndaşı bu gün öz ordusu ilə, sözün əsl mənasında, fəxr edir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz davam edən bir prosesdir. Döyüş hazırlığı məsələlərinə ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu hal-hazırda istər quruda, istər havada, istərsə də dənizdə hər hansı döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir. Məlumdur ki, hər bir ordunun qüdrəti - onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Bu gün Azərbaycan cəmiyyətində, eləcə də orduda ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir.

Bu gün Azərbaycanda ali hərbi məktəblər sisteminin təkmilləşdirilməsi, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması öz nəticəsini verməkdədir. Hazırda Azərbaycan Ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir, maddi-texniki bazası möhkəmləndirilir.

2018-ci ildə Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi ilə bağlı keçirilən hərbi parad bir sıra dövlətlərin Azərbaycan Ordusu haqqında təsəvvürlərinin yaxşı mənada formalaşmasına səbəb oldu. Eyni təəssürat Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələrin iştirakı ilə keçirilən birgə əməliyyat-taktiki təlimlərindən də yarandı. Orduda xidmət bu gün hər bir Azərbaycan gənci üçün fəxr nümunəsinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hər zaman bəyan edir ki, ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsi onun fəaliyyətində prioritet istiqamətlərdəndir. Ötən müddət ərzində Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsi sahələrində həyata keçirilən tədbirlər Ali Baş Komandanın Vətənin müdafiəçilərinin şərəfli xidmətinə necə yüksək qiymət verdiyini bir daha təsdiq edir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə Nazirliyi rəhbərliyinin ordumuzun şəxsi heyətinə diqqət və qayğısı, ordumuza bəslədiyi yüksək inam və etimad bütün hərbçilərin qəlbini qürur və iftixar hissi ilə doldurur. Bu gün Azərbaycan Ordusunun hər bir zabiti və əsgəri Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrinə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpasına, torpaqlarımızı işğalçılardan azad etməyə hazırdır.

Azərbaycan Ordusu bu gün dövlətin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlıqlı təsisatdır. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin verdiyi qiymətə görə, regionun ən hazırlıqlı və ən müasir ordusu Azərbaycan Ordusudur. Bütün bunlar Azərbaycan Ordusunun ən müasir tələblərə cavab verdiyini göstərir. Yuxarıda qeyd edilən bütün faktlar ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı, dövləti, ordusu, ən nəhayət, müstəqilliyi naminə göstərdiyi fəaliyyətin nəticəsidir.

...Adətən, böyük şəxsiyyətlərə obyektiv qiymət verərkən onların yaşadıqları dövrün imkanları ilə müqayisədə nələri edə bildikləri əsas götürülür. Bu baxımdan Heydər Əliyevin həm Azərbaycana rəhbərlik etdiyi, həm də bu missiyadan kənarda olduğu dövrlərə qiymət verərkən birmənalı olaraq deyə bilərik ki, o, zamanın və şəraitin verdiyi imkanlardan öz xalqının maraqları və yüksəlişi naminə maksimum istifadə edib. Azərbaycanda Heydər Əliyev siyasəti, onun dövlətçilik xətti davam edəcək. Çünki bu siyasət Azərbaycanın gələcək tərəqqisinin təminatı baxımından lazımdır.

Ümummilli lider Heydər Əliyev öz ideyaları, hələ başa çatdıra bilmədiyi işlərlə, Azərbaycanın gələcəyini görən böyük planları, arzuları ilə daima bizimlə olacaq. O hər zaman zirvədə olacaq. Heydər Əliyevi bu zirvəyə xalq, onun etimadı və inamı yüksəldib. Onun fəth etdiyi ən böyük zirvə xalqın qəlbidir. Həmin zirvədən Azərbaycanın dünəni və bu günü ilə yanaşı, gələcəyi, rifahlı sabahı da aydın görünür.

Heydər Əliyev Mərkəzlərində, muzeylərdə, bu və ya digər kitabxanalarda ümummilli lider Heydər Əliyevin həyat yoluna həsr olunmuş stendlər, guşələr, müəyyən mənada, öyrətməyə xidmət edir. Ordumuzda xidmət edən hərbi qulluqçular, bu sıradan əsgərlər vaxtaşırı muzeylərdə, Heydər Əliyev Mərkəzində ekskursiyada olurlar. Hər ekskursiya onları Heydər Əliyev irsi ilə daha əhatəli tanış edir - əsgərlər həm də Heydər Əliyev irsini bu baxımdan öyrənirlər...

Ulu öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmlənməsi, xalqımızın rifahının yüksəlməsi, ordumuzun, dövlətçiliyimizin inkişafı sahəsindəki xidmətləri əvəzsizdir. Ona görə də əbədiyyətə qovuşan ümummilli lider Heydər Əliyevin əziz xatirəsi Azərbaycan Ordusunun şəxsi heyətinin, ümumilikdə xalqımızın qəlbində daima yaşayacaq, heç vaxt yaddaşlardan silinməyəcək. Hər birimiz Azərbaycanın sabahları naminə, Ulu Öndərin irsini həyat yolumuza örnək bilərək həmin zirvənin işığında addımlayırıq...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və ABŞ Müdafiə nazirlikləri arasında ikitərəfli hərbi məsləhətləşmələr keçirilib

*Dekabrın 5-də Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olan Amerika Birləşmiş Ştatları Müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin rəhbərlik etdiyi nümayəndə heyəti arasında geniş tərkibli "İkitərəfli Hərbi Məsləhətləşmələr" keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Azərbaycan-ABŞ hərbi əlaqələrinin genişləndirilməsi, təhlükəsizlik, hərbi təhsil, Azərbaycan sülhməramlı kontingentinin NATO-nun Əfqanıstanda həyata keçirdiyi qeyri-döyüş missiyasına verdiyi töhfə və digər qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

L.Kuper Əfqanıstanda keçirilən "Qətiyyətli Dəstək" missiyasında sülhməramlılarımızın nümunəvi xidmətini xüsusi qeyd edib.

Regiondakı vəziyyət haqqında qonaqlara ətraflı məlumat verilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında nizamlanmasının vacibliyi vurğulanıb.

# Hərbi birlikdə döyüş atışlı təlim keçirilib

*Hazırda respublikamızda ordu quruculuğu prioritet məsələ kimi diqqət mərkəzindədir. Müharibə şəraitində yaşayan ölkə üçün bu amil xüsusi əhəmiyyət kəsb edir. Son illərdə Azərbaycan Ordusu əsaslı inkişaf yolu keçib, ordumuzun maddi-texniki bazası hərtərəfli müasirləşdirilib, şəxsi heyətin döyüş qabiliyyəti və peşəkarlığı artıb. Respublikamızda dünyanın ən nizami ordularından biri formalaşdırılıb. Nəticədə Azərbaycan Ordusu ən müasir silahlarla təchiz olunub. Bu zirehli maşınlar, ən müasir tanklar, artilleriya qurğuları və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir.*



Döyüş hazırlığının yüksək səviyyədə saxlanılması daim Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Çünki düşmənə qarşı mübarizədə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində şəxsi heyətin döyüş vərdişlərinin artırılması mühüm əhəmiyyət kəsb edir. Ordunun əldə etdiyi uğurların arxasında mütəmadi keçirilən döyüş hazırlığı dərsləri və təlimlər dayanır. Bütün bunlar mürəkkəb əməliyyat şəraitində zabit və əsgərlərin təcrübi bacarığının və mənəvi-psixoloji hazırlığının formalaşmasına yardımçı olur.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, şəxsi heyətin döyüş hazırlığının və peşəkarlığının artırılması məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda hərbi birliyin döyüş atışlı təlimi keçirilib.

Senariyə uyğun olaraq təlimlərə cəlb olunan motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri döyüş atışları icra edib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin döyüş təbiqinin planlaşdırılması, döyüş sistemlərinin idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi, qarşılıqlı əlaqənin təşkili üzrə müxtəlif səviyyələrdə qərargahlar arasında əlaqələndirmənin təmin edilməsi və döyüş uzlaşmasının səviyyəsinin artırılması təlimin başlıca hədəflərindən biri idi. Azərbaycan Ordusunda silahlı birləşmələrin uzlaşma fəaliyyətinə nail olunması, birləşmə, hissə və bölmələrin döyüş fəaliyyətinin sinxronlaşdırılması təlimdə diqqət mərkəzində olub. Təlimdə, həmçinin döyüş fəaliyyətinin gedişində qoşunların əlaqələndirilmiş şəkildə idarə edilməsi və informasiya mübadiləsinin saxlanması üzrə qərargah fəaliyyətinin məşqinə də xüsusi diqqət yetirilib.

Bu təlimin əsas xüsusiyyəti güclü müdafiəyə malik şərti düşmən nəzərə alınmaqla əməliyyatların silahlanmada olan yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi ilə keçirilməsidir.

Təlim zamanı qoşunların döyüş qabiliyyətinin yüksək səviyyəyə gətirilməsi, onların yenidən qruplaşması üzrə tədbirlərin keçirilməsi, həmçinin döyüş və maddi-texniki təminat məsələləri də yoxlanılıb. İrimiqyaslı birgə əməliyyat-taktiki təlimində qarşıya qoyulan bütün məqsədlərə nail olunub, təlimə cəlb edilən bütün şəxsi heyət yüksək döyüş hazırlığı nümayiş etdirib.

İl ərzində keçirilən digər təlimlər kimi bu təlim də hərbi qurumlarımızın yüksək səviyyəli hazırlığından xəbər verdi və bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirəcək qədər güclüdür.



# "Azərbaycanın hərbi potensialının artması Ermənistanın hərbi-siyasi rejimini təşvişə salıb"

*Son zamanlar Ermənistanda antirusiya ab-havasının yenidən hökm sürdüyü bir vaxtda Azərbaycanın müasir silah və hərbi texnika almaqla hərbi potensialını davamlı şəkildə artırması, həmçinin ən yeni texnologiyaların tətbiqi ilə keçirdiyi hərbi təlimlərdə ordusunun döyüş qabiliyyətini yüksəltməsi bir çox dost ölkələri sevindirsə də, Ermənistanın hərbi-siyasi rejiminin əməlli-başlı təşvişə düşməsinə və narahatlığının daha da artmasına səbəb olub.*

Bunu ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov yeni yaradılmış "Lazarev klubu"nun Rusiyanın və Ermənistanın siyasi dairələrinin nümayəndələrinin iştirakı ilə İrəvanda keçirilən ilk iclasındakı çıxışlar zamanı səsləndirilən fikirləri AZƏRTAC-a şərh edərkən bildirib.

"İclasda diqqəti cəlb edən çıxışlardan biri də MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyevin çıxışı olub. O, Azərbaycanın hərbi gücünün istər kəmiyyət, istərsə də keyfiyyət baxımından Ermənistandan daha üstün olduğunu qeyd edib. V.Yevseyev məhz Rusiyanın Ermənistana verdiyi "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin bu ölkəni Azərbaycanın təhdidlərindən qoruduğunu xüsusilə diqqətə çatdırıb.

Ehtiyatda olan podpolkovnik V.Yevseyev bilməlidir ki, Rusiyanın Ermənistanda yerləşdirdiyi "İsgəndər" əməliyyat-taktiki raket kompleksləri istər dəqiqlik, istərsə də dağıdıcı qüvvə baxımından Azərbaycanın Belarusdan aldığı "Polonez" yaylım atəşli reaktiv sistemlərinə bütün parametrlərdə uduzur. Bütövlükdə isə "İsgəndər" əməliyyat-taktiki raket kompleksləri köhnə olmaqla yanaşı, həm də onun hədəfin vurulmasında yüksək dəqiqlik nümayiş etdirə bilməyəcəyi ehtimalları bu silahın müasir döyüş əməliyyatlarında tətbiqini bu gündək əngəlləyir. Təbii ki, külüng və beldən başqa bir şey görməyən keçmiş hərbçi Yevseyev bunu bilməz. Əgər Ermənistan rəhbərliyi unudubsa, onlara xatırlatmaq istərdim ki, "Polonez" və "Lora"lar Azərbaycan Ordusunun üstünlüyünü təsdiq etməklə düşmən ölkənin ərazisində olan bütün hərbi və strateji obyektləri məhv etməyə qadirdir", - deyə Y.Aydəmirov bildirib.



# Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı Ankarada Heydər Əliyev Parkını ziyarət edib

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələri komandanı general-leytenant Ramiz Tahirov Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Hasan Küçükakyüzün dəvəti ilə Ankarada səfərdədir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər Ankaradakı Heydər Əliyev Parkında Ulu Öndərimizin abidəsinin ziyarət olunması ilə başlayıb.

Ümummilli lider Heydər Əliyevin abidəsi önünə Hərbi Hava Qüvvələri adından əklil qoyulub, dahi şəxsiyyətin əziz xatirəsi dərin ehtiramla yad olunub.

Sonra Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarı - "Anıtqəbir" mavzoleyi ziyarət edilib. Azərbaycan Respublikasının Hərbi Hava Qüvvələrinin adından Atatürkün məzarı önünə əklil qoyulub.



# Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri ilə toplantı keçirilib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, dekabrın 7-də xarici dövlətlərin Silahlı Qüvvələrinin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün illik yekun toplantısı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda 28 xarici dövlətin və beynəlxalq təşkilatın 31 nümayəndəsi iştirak edib.

Müdafiə naziri adından toplantı iştirakçılarını salamlayan Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov onlara regiondakı hərbi-təhlükəsizlik vəziyyəti, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, eləcə də orduda aparılan islahatlar, beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində il ərzində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib və 2019-cu ildə planlaşdırılan fəaliyyətləri diqqətə çatdırıb. İdarə rəisi hərbi attaşelərin suallarını cavablandırıb.



Qonaqlar bu cür tədbirlərin keçirilməsinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və gələcəkdə də səmərəli əməkdaşlığın davam edəcəyinə ümidvar olduqlarını vurğulayıblar.

# ATƏT PA girovların "hamının-hamıya" prinsipi ilə azad olunması təklifini dəstəkləyib

*Dekabrın 5-də Milanda ATƏT Parlament Assambleyasının Büro iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin həm Ermənistan, həm də Azərbaycan tərəfindən qeydə aldığı əsir və girovların "hamının-hamıya" prinsipi əsasında azad edilməsinə dair Azərbaycan tərəfinin irəli sürdüyü təşəbbüsü Büro üzvlərinin diqqətinə çatdırıb.*

Azay Quliyev deyib: "Azərbaycanın bu təşəbbüsü çox humanist bir yanaşmadır və bu təşəbbüsün ATƏT PA tərəfindən dəstəklənməsi üçün kifayət qədər əsaslar var. Təşəbbüsün reallaşması münaqişə tərəfləri arasında müəyyən bir etimad mühitini yaratmaq və sülh danışıqlarında müsbət irəliləyişə nail olmaq üçün önəmli rol oynaya bilər. Hesab edirəm ki, Ermənistanın yeni rəhbərliyi Azərbaycanın göstərdiyi xoş məramı düzgün qiymətləndirməli və danışıqlar üçün yaxşı şərait yarada biləcək bu nadir şansı qaçırmamalıdır. Buna görə Prezident Georgi Tseretelini və Büro üzvlərini bu təşəbbüsü dəstəkləməyə və məsələni Assambleyanın əsas siyasi gündəmində saxlamağa çağırıram".

Azay Quliyev, həmçinin xatırladıb ki, 4 ildir qanunsuz olaraq girovluqda saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasına kömək etmək məqsədilə Parlament Assambleyasının demokratiya, insan haqları və humanitar məsələlər üzrə komitəsinin sədri xanım Marqareta Kiner Nellenə rəsmi məktubla müraciət edib və məsələyə insan hüquqlarının kobud şəkildə pozulması prizmasından qiymət verməyi xahiş edib.

ATƏT PA-nın prezidenti Georgi Tsereteli Azərbaycanın bu təşəbbüsünü təqdir etdiyini bildirib və bu məsələnin həlli istiqamətində müvafiq addımlar atacağını bildirib.

# Naxçıvan Qarnizonunda keçirilən tədbirlər

Naxçıvan Qarnizonunda peşəkar hərbçilər yetişdirən ixtisas hazırlığı kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi oldu.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra çıxış edən zabitlər gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarını bitirən gənclərə xidmətlərində uğurlar arzuladılar.

Məzunlar kurslarda əldə etdikləri bilik və bacarıqla peşəkar hərbçi kimi Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlarına söz verdilər. Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırıldı.

Sonra məzunlara sertifikatlar təqdim edildi və kurs birinciləri tərəfindən xatirə lövhələrinə buraxılış emblemləri vuruldu.

Sonda məzunların tribuna önündən təntənəli keçidi oldu.

* * *

Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında voleybol birinciliyi keçirildi. İlham Əliyev adına Naxçıvan Olimpiya İdman Kompleksində "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 16 komanda mübarizə apardı. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri yarışlar Olimpiya sistemi üzrə keçirildi. Ümumi nəticələrə əsasən birinci yerdə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları, ikinci yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları, üçüncü yerdə isə motoatıcılar qərarlaşdı. Qalib komandalara Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən diplom və kuboklar təqdim edildi.

* * *

Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında "Vətənimiz Azərbaycanı tanıyaq" mövzusunda viktorina keçirildi. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən intellekt mübarizəsində 4 komanda yarışdı. Kursantların Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədi ilə təşkil edilən viktorina 3 mərhələdə keçirildi. Suallar arası fasilələrdə videoçarxlar nümayiş olundu, kursantlar Vətənimizə həsr olunmuş mahnı və şeirləri səsləndirdi, müxtəlif səhnəcikləri canlandırdılar. Məktəbli qızlar rəqs nümunələri ilə çıxış etdilər. "Qələbə", "Mübariz", "Qarabağ" və "Zəfər" adlı komandaların yarışdığı viktorinanın qalibi "Qələbə" komandası oldu. Qalib komandanın üzvləri və tədbirdə fəal iştirak edən məktəblilər mükafatlandırıldılar.

* * *

Naxçıvan Qarnizonu tam orta məktəbinin dərslərdə yüksək nailiyyətlər qazanan şagirdləri Qarabağlar Türbə Kompleksini ziyarət etdilər. Bələdçi tərəfindən əlaçı şagirdlərə tarixi abidə haqqında ətraflı məlumat verildi. Bildirildi ki, türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksi elmi və tarixi əsaslarla bərpa edildikdən sonra istifadəyə verilib. Kompleksin əsasını Naxçıvan memarlıq məktəbinin incilərindən olan Qarabağlar türbəsi təşkil edir. XII-XIV əsrlərə aid edilən türbənin memarı Əhməd Naxçıvanidir. Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri kompleksin xanəgah hissəsində nümayiş olunan eksponatlarla tanış oldular.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

Ordu və cəmiyyət

# “Ataların yolu oğulların yoludur”

*Rubrikamızın qonağı Xalq şairi, Dünya Azərbaycanlıları Konqresinin həmsədri və "Şöhrət" ordenli Sabir Rüstəmxanlıdır.*



**- Sabir müəllim, sizcə ordu ilə cəmiyyət münasibətlərinin tənzimlənməsində başlıca amillər hansılardır?**

- Ordu-xalq və xalq-ordu birliyinin daha da möhkəmlənməsi hər zaman Azərbaycan cəmiyyətində son dərəcə ciddi və aktual məsələlər sırasında dayanıb. Çünki Azərbaycan cəmiyyətinin ən ciddi problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllini Ali Baş Komandanın qətiyyətli mövqeyi, bu mövqeyə əsasən ordu həll edəcək. Ordusuz dövlət yoxdur, ordusuz ərazi bütövlüyümüzü müdafiə edə bilmərik.

Ordu quruculuğu dövlət üçün prioritet məsələlərdən biridir. Ordu quruculuğu prosesində hamı iştirak etməlidir. Orduda ziyalılarla, yazıçılarla, şairlərlə, elm, mədəniyyət və incəsənət xadimləri ilə görüşlərin keçirilməsi indikindən qat-qat artıq olmalıdır. Orduda xidmət edən hər bir gənc bizim övladımızdır. Orta və ali məktəbi bitirən yüzlərlə gənc Vətənə övladlıq borcunu ödəmək üçün ordu sıralarına çağırılır, düşmənlə üzbəüz mövqelərdə Vətənimizin keşiyini çəkir. Onlar Vətəni, torpağı qorumaq üçün Hərbi and içirlər. Belə olan halda ordu-ziyalı əlaqələri daha sıx və daha möhkəm qurulmalıdır. Orduda xidmət edən hər bir gəncin böyük yol keçmiş, təcrübəli və dünya tarixini bilən insanlarla ünsiyyəti, səmimi söhbəti onlara güc və yüksək əhval-ruhiyyə verir. Hərbi hissələrimizdə belə görüşlərin mütəmadi keçirilməsi çox vacibdir.

Əsgərin vətənpərvərlik duyğularının "itilənməsi" üçün ordu-ziyalı əlaqələri hər bir dönəm üçün vacibdir. Hesab edirəm ki, bu sahədə işlərimiz daha yaxşı qurulmalı, alimlərimiz, ziyalılarımız ordunun içində daha çox olmalıdırlar. Onlar hərbçilərimizə Azərbaycanın dövlətçilik tarixindən danışmalı, dünyada gedən proseslərin siyasi izahını verməli, Azərbaycanın mövqeyi haqqında ciddi ictimai-siyasi məzmunlu söhbətlər aparmalıdırlar. Eyni zamanda şəxsi heyətə dünya ölkələrinin ordu sistemi, silahlanması, Azərbaycan Ordusunun dünya orduları sırasında yeri, hərb tariximiz, əcdadlarımızın döyüş ruhu, xalqımızın milli-mənəvi dəyərləri haqqında geniş, ətraflı informasiyalar çatdırmalıdırlar. Doğrudur, bu haqda zabitlər onlarla söhbətlər aparırlar. Mənə belə gəlir ki, belə söhbətlərin forma baxımından zənginləşməsi əhəmiyyətli olar.

**- 2016-cı ilin oktyabrında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun respublikamızın bir qrup tanınmış şair və yazıçıları, ziyalıları ilə görüşü oldu. Bu görüş barədə təəssüratlarınız...**

- Müdafiə naziri ilə dəyirmi masa arxasında çox səmimi və yaddaqalan görüşümüz oldu. Həmin görüş ordu ilə əlaqələrimizi daha da möhkəmləndirdi. Cəbhə bölgəsinə, aprel döyüşlərindən sonra yenidən bərpa olunan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfərlər təşkil olundu. Yaradıcı insanların daima orduyla təmasda olması təkcə xeyirxahlıq missiyası deyil, həm də vətəndaşlıq borcudur. Belə səfərlərin daha genişmiqyaslı olmasını arzulayıram.

Alimlərimizdən və ziyalılarımızdan ibarət mühazirəçilər qrupu yaradılmasını da zəruri bilirəm. Onlar hərbi hissələrimizdə bu mövzularda çıxışlar etsinlər. Cəmiyyətin, millətin bütövlük, həmrəylik ruhu naminə belə bir rabitənin olması vacibdir.

**- Ruhən orduya çox bağlısınız...**

- Ordu ilə həmişə təmasım, sıx əlaqələrim olub. Mən Qarabağ müharibəsi illərində də, atəşkəsdən sonrakı dönəmlərdə də döyüş bölgəsində yerləşən hərbi hissələrimizdə əsgər və zabitlərimizlə görüşmüşəm, söhbətləşmişəm, kitablarımı təqdim etmişəm.

Bu gün də tez-tez hərbi hissələrimizdə oluram. Bu gün ordumuzun təchizatı, ərzaq təminatı çox yüksəkdir.

**- Əsrləri dolaşan Cavad xanın qəhrəmanlığı xalqımızın sərkərdəlik tarixinin şanlı səhifəsidir...**

- Xalqımız çox Cavad xanlar yetirib. Hələ də yetirir. Bu gün Azərbaycan Ordusunda xidmət edən o oğullar Cavanşirin, Babəkin, Şah İsmayıl Xətainin, Cavad xanın, Həzinin, Mehdinin və başqa tarixi sərkərdələrimizin, qəhrəmanlarımızın nəslindəndir. Mən Cavad xan haqqında çəkilən filmin senarisin məhz o inamla yazdım.

**- Radio və televiziyada hərbi vətənpərvərlik verilişləri sizi qane edirmi?**

- Ordu cəmiyyətin görən gözü, vuran əli və sıyrılmış qılıncıdır. Ordu həyatımızın elə mühüm bir parçasıdır ki, ona həssaslıqla yanaşılmalı və cəmiyyətin ürəyi orduyla həmahəng döyünməlidir. Bu gün televiziyalarda hərbi verilişlərimizin sayını daha da artırmalıyıq. Qoy, əsgərlərimiz hərbi vətənpərvərlik verilişlərini daha çox izləsinlər. Həmin verilişlərə tanınmış şair və yazıçılarımızı dəvət etsinlər. Hərbçilərimiz asudə vaxtlarında həmin verilişləri izləsinlər.

**- Ordumuz yeni yarandığı vaxtlarda döyüşçülərlə görüşlərinizi necə xatırlayırsınız?**

- Adama boy verməyən qarlı günlərdə ön xətdə yerləşən hərbi hissələrdən birinə getmişdim. O zaman qəribə bir hadisənin şahidi olmuşdum. Şəxsi heyət sıraya düzülmüşdü. Gördüm ki, Sovet ordusunda qulluq etdiyindən komandirdə hələ Azərbaycan dilində şəxsi heyətə müraciət etmək və əmr vermək vərdişləri yaranmayıb. Onlara dedim ki, bizim dilimiz əsgər dilidi, ordu, döyüş dilidi. Görürsünüz, bizim sözlər tək hecalıdır. Məsələn, vur, qalx, dur, otur, dayan, düzlən, farağat. Bu hadisə döyüşən əsgər və zabitlərimizdə xoş ovqat yaratmışdı.

**- Müharibə ədəbiyyatı hər bir xalqın şanlı hərb tarixindən yaranır.**

- Hər zaman yazılarımda qeyd etmişəm ki, dünya tarixi müharibələrin və padşahların tarixidir. Herodot dünya tarixşünaslığının, tarix elminin atası sayılır. Herodotun əsərləri başdan-başa yunan-fars müharibəsinə həsr olunub. Dahi Nizami Gəncəvinin "İsgəndərnamə" əsəri dövrünün ən güclü sərkərdəsi olan Makedoniyalı İsgəndərə həsr olunub. Lev Tolstoyun "Hərb və sülh" romanında 1812-ci ilin rus-fransız müharibəsindən bəhs olunur. Heminqueyin əsərlərində əsgər həyatı geniş əks olunur. Görkəmli yazıçımız Məmməd Səid Ordubadinin əsərlərində müharibə səhnələri və ötən əsrin əvvəllərində ermənilərin müsəlman əhalisinə qarşı törətdiyi qırğınlar yer alıb. Azərbaycan ədəbiyyatında İkinci Dünya müharibəsindən bəhs edən çoxlu sayda qiymətli əsərlərimiz var. Bu əsərlər onu göstərir ki, müharibələrdən sonra böyük əsərlər yaranır.

Ədəbiyyatımızda Qarabağ müharibəsi ilə bağlı ən böyük əsər Böyük Qələbəmizi gözləyir. Torpaqlarımızın işğal altında olan vəziyyətində ədəbiyyat bu mövzuya hələ ki, ürəklə yanaşa bilmir. Çoxlu publisistik yazılarım var. Qarabağ müharibəsi mövzusuna həsr olunan "Rembo" adlı bir hekayə yazmışam. Ədəbiyyatımızda bu mövzuda yazılan çoxlu sayda hekayə, povest və roman, poeziya nümunələrinə rast gəlinir. Məsələn, Fazil Güneyin "Qana qan" kitabı üç cildlik romandır. Aqil Abbasın "Dolu" əsərini misal göstərmək olar. Günel Anarqızının Qarabağla bağlı hekayələri var.

**- Bu il Azadlıq meydanında möhtəşəm paradlar keçirildi...**

Ordumuz müəyyən tarixi mərhələləri keçərək, müasir prosesdə Cənubi Qafqazın peşəkar, hazırlıqlı bir ordusuna çevrilib. Ordumuzun maddi-texniki təchizatı, döyüş və mənəvi-psixoloji hazırlıqları ildən-ilə güclənir. Mən hərbi paradlarımızda iştirak etmişəm. Xüsusilə, bu il ordumuzun və Bakının işğalçılardan azad edilməsinin 100 illiyinə həsr olunan paradları izlədikcə qürur duydum, hərbçilərimizlə fəxr etdim. O gəncləri görəndə sevincdən gözlərim yaşardı.

Xalqımız Böyük Qələbəni gözləyir... Aprel döyüşləri buna böyük zəmin yaratdı. Qısa müddətdə ordumuz öz gücünü düşmənə göstərdi. Göstərdi ki, Azərbaycan Ordusu torpaqlarını azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir. Aprel döyüşləri gedən zaman yüzlərlə, minlərlə gənc, Qarabağ müharibəsi iştirakçısı, veteranlar döyüşə getməyə hazır idi. Bu gün də xalqımız torpağının azadlığı uğrunda döyüşə, savaşa atılmağa hazırdır. Yaşımın bu çağında mən də hər zamankı kimi hərbçilərimizin yanında olmağa, onlarla döyüşə getməyə hazıram. Təki Vətənin bütövlüyü, torpaqlarımızın azadlığı təmin olunsun!

**- Nəhayət, Azərbaycan Ordusunun zabit və əsgərlərinə arzularınız...**

- Əsgər torpağının azadlığı, Vətəninin bütövlüyü uğrunda döyüşdüyünü biləndə daha da güclü olur. Bu ruhu onlara aşılayan zabitlərimizdir. O zabitlərimiz ki, xalqımızın milli-mənəvi dəyərlərini daima əsgərlərimizə təbliğ edirlər. Ata-babalarının keçdiyi şərəfli döyüş yollarını özlərinə örnək bilirlər. Ataların yolu oğulların yoludur. Zabit və əsgərlərimizə ən böyük arzum, məhz onların xidmət dövründə torpaqlarımızın düşməndən azad edilməsidir. Əsgərlərimiz tezliklə Şuşaya qədəm qoysunlar, Qarabağımızı düşməndən azad etsinlər, üçrəngli müqəddəs bayrağımızı tarixi torpaqlarımızda dalğalandırsınlar!

**- Maraqlı müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

## ABŞ dövlət katibinin köməkçisi Azərbaycanın terrorizmə qarşı mübarizədə töhfəsini yüksək qiymətləndirib

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Nazirlər Şurasının 25-ci sessiyası çərçivəsində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Uess Mitçel ilə görüşüb.*

Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və ABŞ arasında mövcud tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib və ikitərəfli əməkdaşlıq gündəliyinin bir çox məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov Uess Mitçelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların son vəziyyəti və dekabrın 5-də ATƏT-in Minsk Qrupunun həmsədrləri və Ermənistanın Xarici İşlər naziri ilə Milanda baş tutan görüşü barədə məlumat verib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanın Xarici İşlər naziri Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in 25-ci Nazirlər Şurası çərçivəsində Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nazir Elmar Məmmədyarov Aİ-nin xüsusi nümayəndəsini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏT-in Minsk Qrupunun həmsədrləri və Ermənistan Xarici İşlər naziri ilə baş tutmuş son görüş barədə məlumatlandırıb. O, münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, Helsinki Yekun Aktına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməli olduğunu bildirərək, güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi və ərazi əldə edilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğulayıb.

*Azərbaycan Xalq Cümhuriyyəti - 100*

# Dövlətçilik tariximizin parlaq və şərəfli səhifəsi

*Bu günlərdə Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi C.Naxçıvanski adına Hərbi Liseylə birgə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirdi. Aparıcı Naibə Şəmşiyeva mərasimi açıq elan etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. İştirakçılar hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.*



Polkovnik-leytenant Kamran Nəsibov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verərək dedi:

- Hər bir xalqın həyatında elə önəmli hadisələr var ki, bu hadisə onun tarix salnaməsinə əbədi və silinməz izlər salır. 100 il bundan əvvəl tarix səhnəsinə şərəfli qədəmlərini atan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması da belə əlamətdar hadisələrdən biridir. Bildiyiniz kimi, 1918-ci il mayın 28-də Tiflis şəhərində xalqımızın uzaqgörən vətənpərvər oğulları Azərbaycanın müstəqilliyini bəyan edərək ölkəmizi bütün dünyaya tanıtmağa başladılar. Qısa bir zaman çərçivəsində demokratik prinsiplərə, milli mənafeyə söykənən bir dövlətin qurulması üçün bütün imkanlar səfərbər edildi. Cəmi 23 ay yaşamasına baxmayaraq, müstəqil dövlətin varlığını sübut edən dövlət bayrağı, dövlət dili, dövlət himni haqqında qanunlar da daxil olmaqla, ümumilikdə 200-dən artıq qanun qəbul edildi. AXC-nin həyata keçirdiyi ən böyük islahatlardan biri və ən zərurisi də dövlətin müdafiəsinin əsasını təşkil edən milli ordunun yaradılması oldu. Belə ki, 26 iyun 1918-ci ildə bu barədə qərar qəbul edildi. Bu qərar qısa vaxt ərzində 40 minlik nizami ordunun yaradılması ilə nəticələndi. Sevindirici haldır ki, Cümhuriyyət dövründə ordumuza S.Mehmandarov, Ə.Şıxlinski və C.Naxçıvanski kimi hərb tarixində öz imzalarını qoymuş sərkərdələr rəhbərlik edirdilər.

Sözünə davam edən məruzəçi təəssüf hissi ilə onu da qeyd etdi ki, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti xarici təzyiqlərə və ölkə daxilindəki parçalanmaya davam gətirməyərək süquta uğradı. Aparılan böyük quruculuq işləri yarımçıq qaldı. XX əsrin sonlarında Sovetlər Birliyi dağılandan sonra xalqımız yenidən müstəqilliyinə qovuşdu. Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra müstəqilliyimiz daha da möhkəmləndi. Ulu Öndər dövlətçiliyimizin möhkəmlənməsi üçün uğurlu islahatlar həyata keçirdi. Aparılan islahatların nəticəsidir ki, bu gün müstəqil ölkəmiz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin başçılığı altında daha da böyük uğurlar qazanmaqdadır. Ordu quruculuğu istiqamətində aparılan islahatlar müsbət nəticələr verməkdədir. Azərbaycan Ordusu gündən-günə daha da güclənərək peşəkarlığını artırır. 2016-cı ilin aprel döyüşləri və 2018-ci ildə Günnüt əməliyyatı ordumuzun artan gücündən və qüdrətindən xəbər verir.



Polkovnik-leytenant K.Nəsibov çıxışını bu sözlərlə bitirdi: "Əminəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti gələcəkdə daha böyük qələbələr qazanacaq və işğal altında olan torpaqlarımızı tamamilə düşməndən azad edəcəkdir!"

Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu" uvertürasının sədaları altında Azərbaycan Xalq Cümhuriyyətinin banilərinə həsr olunmuş videoçarx nümayiş olundu.

Tarix elmləri üzrə fəlsəfə doktoru, professor Lətifə Məmmədovanın "Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin parlaq səhifələrindən biridir" mövzusunda məruzəsi böyük maraqla dinlənildi.

Yazıçı Gülzar İbrahimova çıxışında vətənpərvərlik mövzusunda yazdığı əsərlərindən geniş söhbət açdı.

Hərbi liseyin kursantı Nuri İbrahim çıxış edərək təhsil ocağının adını daşıdığı Azərbaycan Xalq Cümhuriyyətinin hərb xadimlərindən biri olan general-mayor Cəmşid Naxçıvanskinin keçdiyi şərəfli xidmət yolları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi.

Beynəlxalq müsabiqələr laureatı Elxan Məhərrəmovun ifa etdiyi mahnılar tədbir iştirakçılarının zövqünü oxşadı.

Tədbirin sonunda iştirakçılar kitab və fotolardan təşkil edilmiş "AXC-100" mövzusunda sərgiyə baxdılar.



**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Türkiyə şəhidlərinin övladları Azərbaycana gələcəklər

Azərbaycanın tarixi və mədəniyyəti ilə yaxından tanış olmaq məqsədilə yanvarın 15-də Türkiyədən Azərbaycana 20-dək şəhid övladı gələcək. Onlar Bakıda və Azərbaycanın digər bölgələrində tarixi yerlərlə tanış olacaqlar.

Bu barədə AZƏRTAC-a açıqlamasında Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar bildirib.

O qeyd edib ki, səfər zamanı uşaqlarla bir sıra rəsmi qurumlarda da görüşlər təşkil olunacaq. Səfərin reallaşdırılmasında məqsəd ortaq tarixə, mədəniyyətə və ədəbiyyata malik türk xalqları ilə bağlı gələcək nəslin nümayəndələrinə məlumat verməkdir. Türkiyə və Azərbaycan tarix boyunca qardaş və dost ölkələr olublar. Hər iki ölkənin vətəndaşları həmişə düşmənlərinə qarşı birgə mübarizə aparıblar. Bu tarixi reallıq sözdə deyil, əməldə də hər bir türk övladına izah olunmalıdır.

Federasiyanın sədri deyib ki, şəhid olmaq türk adət-ənənələrinə görə müqəddəs hesab edilir. "Şəhid övladlarını qorumaq isə hər birimizin mənəvi borcudur. Buna görə də biz şəhid övladlarına hər zaman diqqət və qayğı ilə yanaşmalı, tariximizi, mədəniyyətimizi onlara tanıtmalıyıq."

Bilal Dündar səfərin bu tarixə təyin edilməsinin təsadüfi olmadığını deyərək əlavə edib ki, 8 günlük səfər proqramı çərçivəsində şəhid övladları 20 Yanvar faciəsinin 29-cu ildönümü tədbirlərində də iştirak edəcəklər. Onlar yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edəcəklər.

Federasiyanın sədri bildirib ki, bu layihənin davamı olaraq azərbaycanlı şəhid övladları da Türkiyəyə səfər edəcəklər.

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-a məxsus hərbi təyyarələrin toqquşmasından sonra iki nəfər sağ tapılıb



Yaponiya sahillərində ABŞ-a məxsus FA-18 qırıcı təyyarəsi ilə KC-130 yanacaqdoldurma təyyarəsinin toqquşmasından sonra iki nəfər sağ tapılıb. Digər beş hərbçinin taleyi hələlik məlum deyil.

Xatırladaq ki, İvakuni bazasından havaya qalxaraq "planlı təlim uçuşu" həyata keçirən ABŞ hərbi dəniz qüvvələrinə məxsus iki hərbi təyyarə yerli vaxtla gecə saat 2 radələrində Yaponiya sahillərindən 200 mil məsafədə toqquşub.

Qəza zamanı təyyarələrin göyərtəsində yeddi nəfər olub. Hazırda hadisənin baş verdiyi rayonda axtarış-xilasetmə işləri davam etdirilir.

## Kubanda ağır yol-nəqliyyat hadisəsi olub



Rusiyanın Krasnodar diyarında təcili tibbi yardım maşını "VAZ-2114" markalı avtomobillə toqquşub.

İnsident Nekrasovskaya rayonunda qeydə alınıb.

Yol-nəqliyyat hadisəsi nəticəsində minik avtomobilində olan 6 nəfər, o cümlədən 2 azyaşlı uşaq həyatını itirib, bir nəfər isə yaralanıb. Həmçinin təcili tibbi yardım maşınının 3 əməkdaşı da xəsarət alıb. Həkimlər bütün yaralıların vəziyyətinin son dərəcə ağır olduğunu bildirirlər.

Hazırda qəzanın baş verdiyi ərazidə polis əməkdaşları fəaliyyət göstərir. Hadisə ilə bağlı təhqiqat başlayıb.

## İranda törədilən terror aktı nəticəsində üç nəfər ölüb



İranın ən böyük liman şəhəri olan Çabaharda terror aktı törədilib.

Səhər saatlarında terrorçu-kamikadze partlayıcının quraşdırıldığı avtomobili şəhərin polis idarəsinin binası istiqamətində sürüb. Avtomobil binaya çırpılaraq partlayıb.

Sistan-Bəlucistan valisinin təhlükəsizlik məsələləri üzrə müavini Məhəmmədəli Mərəşi mətbuata verdiyi açıqlamada bildirib ki, partlayış nəticəsində 3 nəfər ölüb, 19 nəfər yaralanıb.

Hadisə şahidləri qeyd edirlər ki, partlayışdan sonra avtomat silahlardan atışma səsləri eşidilib. Ehtimal edilir ki, partlayışdan sonra polis idarəsinə silahlı hücum və polis əməkdaşları ilə terrorçular arasında silahlı toqquşma olub.

Hadisə yerində araşdırma aparılır.

## Gələn il Gürcüstanda "NATO-Gürcüstan 2019" çoxmillətli təlimləri keçiriləcək



Gələn il Gürcüstanda "NATO-Gürcüstan 2019" çoxmillətli təlimləri keçiriləcək. Birgə təlimlər Gürcüstan Silahlı Qüvvələrinin modernləşdirilməsi, NATO standartlarına uyğunlaşdırılması və inteqrasiyasının sürətləndirilməsi məqsədilə keçiriləcək.

Bu sözləri Gürcüstanın Müdafiə naziri Levan İzoria rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə bağlı illik hesabat verərkən deyib.

Nazirin sözlərinə görə, təlimlərdə NATO-ya üzv və tərəfdaş ölkələrin, o cümlədən Cənubi Qafqaz dövlətlərinin hərbi qulluqçularının da iştirakı nəzərdə tutulub. L.İzoria Gürcüstanın hərbi qüdrətinin artırılması, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması, əməkhaqlarının, silahlı qüvvələrin döyüş və müdafiə qabiliyyətinin artırılması, beynəlxalq əməkdaşlığın perspektivləri barədə məlumat verib.

**AZƏRTAC-ın materialları əsasında**

# Tərtərdə şəhidlərin xatirəsinə ucaldılmış abidənin açılışı olub



*Tərtər rayonunun Yuxarı Qaradağlı kəndində respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş Qapanlı, Yuxarı Qaradağlı və Qaraağacı kəndlərindən olan şəhidlərin xatirəsinə ucaldılmış abidənin açılışı olub.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu münasibətlə keçirilən mərasimdə rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, məktəblilər, şəhidlərin ailə üzvləri və döyüş yoldaşları, hərbçilər iştirak ediblər.

Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Tərtər Cümə Məscidinin imamı şəhidlərin ruhuna dua oxuyub.

Tədbirdə çıxış edən Tərtər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Şabanov bildirib ki, Vətənini uca tutanı Vətən də uca tutar. Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş oğulları unutmağa haqqımız yoxdur. Onların müqəddəs əməllərini layiqincə qiymətləndirmək və bunu gələcək nəsillərə çatdırmaq bizim ümdə vəzifəmizdir. Bu, bizim dövlətin həyata keçirdiyi vətənpərvərlik siyasətinin prioritet istiqamətlərindəndir. Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə də belə olub, Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətində də əsas istiqamət budur.

Qeyd olunub ki, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə dövlət tərəfindən həmişə diqqət və qayğı göstərilir. Tərtərdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün iki 16, bir 24, bir 54 mənzilli yaşayış binaları, həmçinin fərdi evlər tikilib, onların istifadəsinə verilib. Onlarla əlil avtomobil və əlil arabası ilə təmin olunub. Şəhidlərin adları əbədiləşdirilib. Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun, "Azərbaycan bayrağı" ordenli Mehrac Mahmudovun və Ədalət Paşayevin, "İgidliyə görə" medalı ilə təltif edilmiş Nicat İsgəndərovun, İlqar Həsənovun adları küçələrə verilib.



Tədbirdə abidənin tikilməsinin təşəbbüskarı və icraçısı şəhid Zülfüqar Qasımovun qardaşı, ikinci qrup Qarabağ əlili Etibar Qasımov, həmçinin Tərtər batalyonunun keçmiş qərargah rəisi Pənah Məmmədov, Vətən Müharibəsi Veteranları İctimai Birliyinin rayon şöbəsinin sədri, "Azərbaycan bayrağı" ordenli Nizami Heydərov, keçmiş döyüşçü Yolçu Süleymanov, Qapanlı kənd tam orta məktəbin direktoru Fitat Əliyeva da çıxış edərək şəhidlərin qəhrəmanlıqla dolu döyüş yollarından danışıb, Qarabağ müharibəsi veteranlarına, əlillərə və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Sonra şəhidlərin xatirəsinə ucaldılmış abidənin üzərindən ağ örtük götürülüb. Tədbir iştirakçıları abidənin önünə tər gül-çiçək dəstələri düzüblər.



# Asudə vaxt səmərəli təşkil olunur

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkil olunduğunun şahidi olduq.*

Şəxsi heyətin asudə vaxtlarında ən çox nə ilə məşğul olduqlarını öyrənmək üçün baş leytenant Xəyal Mustafayevə suallarımızı ünvanlayırıq. Zabit söhbətində bildirdi ki, hərbi vətənpərvərlik tərbiyəsini, sadəcə, quru sözlərlə, nəsihətlərlə məhdudlaşdırmaq olmaz. "Çünki Vətən sevgisi əsgərlərimizin məqsədyönlü davranışının, fəaliyyətinin motivi və ideyasıdır. Danılmaz faktdır ki, düşmən ölkə ilə olan müharibə vəziyyəti hər an torpaqlarımızın güc yolu ilə azad olunması reallığını ortaya qoyur. Bu işin reallaşdırılması əsgərlərimizin üzərinə düşür. Belə bir şəraitin mövcud olması gənc nəslin vətənpərvərlik ruhunda formalaşdırılmasını labüd edir. Bu baxımdan şəxsi heyətimiz keçirilən məşğələlər nəticəsində təkcə silahlardan istifadə qaydalarını öyrənmir, eyni zamanda Vətənə bağlılıq hisslərini artırır, onu müdafiə etmək borcunu öz üzərlərinə götürür. Buna görə də əsas məqsədimiz əsgərlərimizi dözümlü, qorxmaz, cəsur, vətənpərvər, bacarıqlı, hər an döyüşə hazır ruhda yetişdirməkdir".

- Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür, - deyə baş leytenant Xəyal Mustafayev söhbətinə davam etdi. - Bu vəzifələri isə yalnız öz Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilərlər. Hazırda torpaqlarımızın bir qismi işğal altındadır. Bir milyondan çox soydaşımız doğma yurdyuvasından didərgin düşüb. Vətənin belə bir çətin zamanda mərd, qorxmaz gənclərə



böyük ehtiyacı var. Məhz buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılır. Əlbəttə, əsgərlərimizdə vətənpərvərlik hisslərini artırmaq biz komandirlərin üzərinə düşür. Buna görə də onlara ictimai-siyasi hazırlıq dərslərində Azərbaycan hərb tarixini öyrədirik, asudə vaxtlarında vətənpərvərlik mövzusunda qısametrajlı filmlər nümayiş etdirirk, Milli qəhrəmanlarımızın və şəhidlərimizin döyüş yolları barədə geniş məlumatlar veririk. Asudə vaxt dedikdə təkcə istirahət və bayram günləri nəzərdə tutulmur. Məsələn, günün nizam qaydasına uyğun olaraq məşğələlər bitdikdən sonra qalan boş vaxtlarda idmanla məşğul olmaq, hərəkətli və ya intellektual oyunlarla məşğul olmaq, bədii kitab, qəzet və jurnallar oxumaq vacib şərtlərdəndir. Əsgərlərin asudə vaxtlarını səmərəli keçirəcəkləri yerlərdən biri də ideoloji otaqdır. Orada hər bir gənc öz maraq dairəsinə uyğun işlərlə məşğul ola bilər. Əsgərlərin asudə vaxtının səmərəli təşkili ilə bərabər, biz onları sabaha, gələcəyə vətənpərvər ruhda hazırlayırıq. Bununla da qeyd olunan bu amillər əsgərlərdə fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, inam hissini gücləndirir, qələbəyə ruhlandırır.

Digər həmsöhbətim Füzuli rayonundan ordu sıralarına çağırılan əsgər Ələkbər İbrahimovdur. O bildirdi ki, atası ona tez-tez Füzuli uğrunda gedən döyüşlərdən söhbətlər edərdi. "Atam deyərdi ki, bu gün düşmən tapdağı altında olan Füzulimizin hər bir kəndi, hər bir qəsəbəsi ürəyimizin bir parçasıdır. Əfsuslar olsun ki, indi o yerlərdə düşmən gəzir. Yalnız buna baxmayaraq biz əminik ki, tezliklə yenilməz Azərbaycan Ordusu bu həsrətə son qoyacaqdır".

Söhbətinə davam edən əsgər daha sonra bildirdi:

- Bu gün dünyanın güclü orduları sırasında olan Azərbaycan Ordusunda xidmət edirəm. Bizlər üçün burada hər bir şərait yaradılıb. Komandirlərimizin rəhbərliyi altında asudə vaxtlarımızdan da səmərəli yararlanırıq. Bədii və hərbi kitablar, jurnallar və qəzetlər oxuyur, televiziya verilişlərini seyr edir, şahmat və dama oyunları oynayırıq. Komandirlərimiz bizlər üçün yarışlar, viktorinalar keçirirlər. Yarışların qalibləri isə komandirlərimiz tərəfindən mükafatlandırılır. Onların bizlərə göstərdiyi diqqət və qayğı sayəsində xidmətimizi düzgün təşkil edir, hər an Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik.

Digər həmsöhbətim isə Bakı şəhərindən ordu sıralarına çağırılan əsgər Roman Zeynalovdur. Romanın atası Qarabağ uğrunda gedən döyüşlərin iştirakçısı olub. Söhbət zamanı əsgər bildirdi ki, belə bir ordununda xidmət etməsindən qürur duyur: "Əlbəttə, belə şəraitin qarşısında üzərimizə düşən vəzifə xidmətimizi düzgün təşkil etməkdir. Buna görə mən də xidməti vəzifələrimin öhdəsindən layiqincə gəlirəm. Hərbin sirlərinə komandirlərimizin köməkliyi ilə dərindən yiyələnirəm. Səbirsizliklə digər əsgər yoldaşlarım kimi döyüş əmrini gözləyirik ki, axıdılan qanın qisasını alaq və doğma Qarabağımızı işğaldan azad edək."

Əsgərlər İmran Cavadov, Cavid Məmmədli və digərləri də Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə doğma Qarabağımızın işğaldan azad olunacağı günün həsrətilə xidmət etdiklərini bildirdilər.

**Baş leytenant Orxan HÜSEYNLİ, "Azərbaycan Ordusu", foto çavuş Namiq PƏNAHOVUNDUR**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1024
Nüsxə 3525